# “Azərbaycan Dəmir Yolları” QSC-nin fəaliyyətinin qiymətləndirilməsi

**Azər Mehtiyev,**

***20 may 2020***

# Dəmir yolu nəqliyyatının ölkənin nəqliyyat sektorunda yeri və rolu

## Nəqliyyat sektorunda yük daşınması, min ton




| | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|
| Dəmir yolu | 15876 | 26522 | 22349 | 17090 | 15479 | 14558 | 13954 |
| Dəniz | 8779 | 13680 | 11714 | 6626 | 5807 | 8344 | 8236 |
| Hava | 37 | 74 | 40 | 129 | 160 | 173 | 208 |
| Boru kəməri | 15054 | 18534 | 62458 | 60923 | 59556 | 58490 | 58402 |
| Avtomobil | 40434 | 69518 | 99891 | 137605 | 141459 | 144854 | 149344 |

Mənbə: Dövlət Statistika Komitəsi

# Nəqliyyat sektorunda yük daşınmanın nəqliyyat növləri üzrə strukturu (ümumi yekuna görə faizlə)

| | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi yükdaşınma, min ton | 80180 | 128328 | 196452 | 222373 | 222461 | 226419 | 230144 |
| Dəmir yolu | 19,80 | 20,67 | 11,38 | 7,69 | 6,96 | 6,43 | 6,06 |
| Dəniz | 10,95 | 10,66 | 5,96 | 2,98 | 2,61 | 3,69 | 3,58 |
| Hava | 0,05 | 0,06 | 0,02 | 0,06 | 0,07 | 0,08 | 0,09 |
| Boru kəməri | 18,78 | 14,44 | 31,79 | 27,40 | 26,77 | 25,83 | 25,38 |
| Avtomobil | 50,43 | 54,17 | 50,85 | 61,88 | 63,59 | 63,98 | 64,89 |



# Nəqliyyat sektorunda sərnişin daşınması, 1000 sərnişin

| | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | 871484 | 1000278 | 1387308 | 1891905 | 1929685 | 1973440 | 2002836 |
| **Dəmir yolu** | 4250 | 5492 | 4803 | 1883 | 1978 | 2490 | 2841 |
| **Dəniz** | 12 | 17 | 12 | 9 | 20 | 17 | 16 |
| **Hava** | 701,1 | 1211 | 1017 | 1818 | 1980 | 2359 | 2399 |
| **Tramvay** | 2427 | - | - | - | - | - | - |
| **Trolleybus** | 3431 | 696 | - | - | - | - | - |
| **Metro** | 117364 | 146952 | 181146 | 222040 | 217516 | 228848 | 231016 |
| **Avtomobil** | 743299 | 845910 | 1200330 | 1666155 | 1708191 | 1739726 | 1766564 |

## Sərnişin daşınmasında dəmir yolunun payı, ümumi yekunda payı, faizlə

| | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|
| **Sərnişin daşınmasında dəmir yolunun payı, ümumi yekunda payı, faizlə** | 0,49 | 0,55 | 0,35 | 0,10 | 0,10 | 0,13 | 0,14 |

# Azərbaycanda dəmir yolu xətlərinin istismar uzunluğu, km



# Dəmir yolu daşınmaları sektorunun əsas oyunçuları

- Azərbaycanda dəmir yolu daşınmaları sektoru **“Azərbaycan Dəmir Yolları” (ADY) QSC** idarə edir;
- ADY QSC hazırda ölkənin dəmiryolları şəbəkəsinin yeganə operatorudur.

## ADY QSC təbii inhisar kimi

Nazirlər Kabinetinin *2013-cü il 19 iyul tarixli 189 saylı qərarı* ilə təsdiqlənən təbii inhisar subyektlərinin siyahısında ADY QSC-nin aşağıdakı fəaliyyət növləri təbii inhisara aid edilir:

- magistral və yerli dəmiryol xətlərinin, yol qurğu və tikililərinin istismarı, hərəkəti, idarəetmə və hərəkət təhlükəsizliyi fəaliyyəti,
- dəmiryol stansiyaları və sərnişin vağzallarının xidmətləri.

# ADY QSC-nin yaradılması və tabeçiliyi

- ADY QSC Azərbaycan Respublikasının Prezidentinin ***20 iyul 2009-cu il tarixli (383 saylı) Sərəncamı*** əsasında Azərbaycan Dövlət Dəmir Yolunun yenidən təşkili yolu ilə  yradılıb;

- Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur;

- Cəmiyyət ilkin olaraq Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinin tabeliyində yaradılsa da, Azərbaycan Respublikası Prezidentinin ***18 sentyabr 2015-ci il tarixli Fərmanı*** ilə cəmiyyət nazirliyin tabeliyindən çıxarıldı;

- Cəmiyyətin Nizamnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin ***2010-cu il 15 fevral tarixli 36 nömrəli qərarı*** ilə təsdiq edilib;

- Nizamnaməyə əsasən, dövlət Cəmiyyətin öhdəlikləri üçün cavabdeh deyildir və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün dövlətə məxsus səhmlərin dəyəri həddində risk daşıyır.

# ADY QSC-nin məqsədləri

Nizamnamədə Cəmiyyətin əsas məqsədi kimi bunlar göstərilib:

- ölkə iqtisadiyyatının, fiziki və hüquqi şəxslərin dəmir yolu ilə daşımalara və dəmir yolu sahəsində digər xidmətlərə olan tələbatının təmin edilməsi,
- dəmir yollarının, habelə ümumi istifadədə olan dəmir yolu nəqliyyatının infrastrukturunun inkişaf etdirilməsi və təkmilləşdirilməsi,
- dəmir yollarında hərəkətin idarə edilməsinin təmin olunması,
- dəmir yolu nəqliyyat vasitələri parkının, maddi-texniki bazasının müasirləşdirilməsi və səmərəli istifadə olunması,
- bu sahədə kadr hazırlığının aparılması.

Bu məqsədlərə nail olmaq üçün Nizamnamədə Cəmiyyətin ümumilikdə **53 fəaliyyət** istiqaməti göstərilib.

# ADY QSC-nin nizamnamə kapitalı

- Nazirlər Kabinetin *2010-cu il 15 fevral tarixli 36 nömrəli qərarın*da Cəmiyyətin ***nizamnamə kapitalı*** **599 mln. manat**, ***səhmlərinin nominal dəyəri isə 2 manat*** məbləğində müəyyən edilmişdi.
- Sonradan Nazirlər Kabinetinin *16 may 2014-cü il tarixli qərarı* ilə Cəmiyyətin nizamnamə kapitalının məbləği **726146366 manata**,
- Nazirlər Kabinetinin *10 avqust 2017-ci il tarixli qərarı* ilə **806061960 manata** yüksəldildi.

**Qeyd:**

- Azərbaycan Respublikası Prezidentin *6 iyul 2018-ci il tarixli Fərmanın*a əsasən 2018-ci ilin dövlət büdcəsinin «İqtisadi fəaliyyət» bölməsində ADY QSC-nin nizamnamə kapitalının artırılmasına (*Şərq-Qərb dəmir yolu dəhlizinin Bakı-Böyük Kəsik xəttində rabitə-işarəvermə sisteminin yenidən qurulması ilə bağlı*) **100.0 milyon manat** ayrılması nəzərdə tutulmuşdu. Cəmiyyətin 2018-ci il üzrə maliyyə balansında bu məbləğ nizamnamə kapitalında göstərilməyib.

# ADY QSC-nin strukturu

- Nazirlər Kabinetinin *17 mart 2016-cı il tarixli 133 saylı qərarı* ilə ADY QSC-nin strukturu aşağıdakı kimi təsdiq olunub:

1. ADY QSC-nin Aparatı;

2. ADY QSC-nin törəmə cəmiyyətləri:

- 2.1. “Naxçıvan Dəmir Yolları” MMC,

- 2.2. Cəmiyyətin digər törəmə cəmiyyətləri;

3. ADY QSC-nin tabeliyində olan hüquqi şəxs statusuna malik olmayan təşkilatlar (idarələr);

4. ADY QSC-nin filial və nümayəndəlikləri.

# ADY QSC-nin strukturu

***“Naxçıvan Dəmir Yolları” MMC***-dən başqa ADY QSC-nin saytında daha 2 törəmə cəmiyyət haqqında məlumat var:

- ***“ADY Konteyner” MMC*** - 2017-ci il avqustun 1-dən fəaliyyət göstərir. Dəmir yolu vasitəsilə yük daşımalarının keyfiyyətinin artırılması və təhlükəsizliyinin təmin edilməsi, *konteyner daşımalarının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi və səmərəli idarə olunması* məqsədilə yaradılmışdır;

- ***“ADY Ekspress” MMC*** - Xəzər dənizi, Qara dəniz, Avropa, İran körfəzi, Mərkəzi Asiya və Uzaq Şərq regionlarının bütün sənayə sahələri üçün geniş həcmdə dəmir yolu daşımaları həyata keçirmək və logistika sahəsində əlverişli şəraitin, şəffaf mühitin yaradılmasına nail olmaq məqsədi ilə yaradılıb.

## Cəmiyyətin 2017-ci il üzrə konsolidə edilmiş maliyyə hesabatında cəmiyyətin tərkibində aşağıdakı strukturların olması göstərilir:

| Name of the Company/Branches | Nature of business | Group's equity interest |
|---|---|---|
| "Capital Construction" and "Technical Supervision" LLC | Construction management and supervision | 100% |
| "Nakhchivan Railways" LLC | Freight and passenger transportation, construction works | 100% |
| "Administrative Management" LLC | Administrative support | 100% |
| "Railway Services" LLC | Construction works | 100% |
| #11 Limited Liability Company | Construction works | 100% |
| #5 Limited Liability Company | Construction works | 100% |
| "Capital Repairs" LLC | Construction management and supervision | 100% |
| "Absheron Volleyball Club" Ltd | Sport | 100% |
| "Locomotive Volleyball Club" Ltd | Sport | 100% |
| "Locomotive Women Volleyball Club" LLC | Sport | 100% |
| "Azerrail Volleyball Club" LLC | Sport | 100% |
| "ADY Express" LLC | Logistics services | 100% |
| Georgia branch of ADY | Construction works | 100% |
| "ADY Container" LLC | Management of container transportation | 100% |
| "ADY Property" LLC | Management of real estates | 100% |
| "AzRus Trans" CJSC | Freight transportation | 51% |
| "Astara Grain Terminal" LLC | Logistics hub | 50% |

# ADY QSC-nin strukturu: qeyri-profil müəssisə və təşkilatlar

Azərbaycan Respublikası Nazirlər Kabineti 2016-cı il 21 oktyabr tarixli 550 s saylı sərəncamına əsasən ADY QSC-nin tabeliyində olan aşağıdakı qeyri-profil müəssisə və təşkilatların ortamüddətli dövrdə onun tabeliyindən çıxarılaraq özəlləşdirilməsi nəzərdə tutulur:

1. Bakı Vaqon Təmiri Zavodu
2. Bakı Demir Yolu Vağzalının mehmanxanası
3. Lokomotiv İdman Sağlamlıq Mərkəzinin əmlakı
4. 1 nömrəli İxtisaslaşdırılmış Demir Yolu Müəssisəsinin əmlak kompleksi
5. Qızılca Qırmadaş Zavodu
6. Gəncə Demir Yolu Vağzalının mehmanxana kompleksi
7. Bakı Dəmir Yolu Xəstəxanası
8. Əncirli Uşaq Demir Yolu Xəstəxanası
9. Mərkəzi Demir Yolu Xəstəxanası
10. 1 nömrəli Bakı Demir Yolu Poliklinikası
11. 2 nömrəli Bakı Dəmir Yolu Poliklinikası

1. Kürdəmir Dəmir Yolu Ambulatoriyası
2. Lənkəran Demir Yolu Ambulatoriyası
3. Ucar Demir Yolu Ambulatoriyası
4. Xaçmaz Demir Yolu Ambulatoriyası
5. Yevlax Demir Yolu Ambulatoriyası
6. Gəncə Dəmir Yolu Xəstəxanası
7. Hacıqabul Dəmir Yolu Xəstəxanası
8. İmişli Dəmir Yolu Xəstəxanası
9. Ələt Dəmir Yolu Xəstəxanası
10. Salyan Demir Yolu Xəstəxanası
11. "Lokomotiv" istirahət düşərgəsi.

- Siyahıdan göründüyü kimi, özəlləşdirilməsi nəzərdə tutulan obyektlərin 15-i tibb müəssisəsi, 2-ci mehmanxana, 2-si zavod, 1-i düşərgədir.

# Cəmiyyətin idarə edilməsi

- Nizamnaməyə əsasən, Cəmiyyətin **ali idarəetmə orqanı** onun ***səhmdarlarının ümumi yığıncağı***dır.
- Ümumi yığıncağın müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər ADY QSC-nin yaradılması haqqında prezidentin müvafiq sərəncamına uyğun olaraq həll edilir.
- Həmin Sərəncama əsasən Cəmiyyətin ümumi yığıncağının aşağıdakı səlahiyyətlərinin həyata keçirilməsi Nazirlər Kabinetinə həvalə edilib:

1. *Cəmiyyətin Nizamnaməsinin və strukturunun təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;*
2. *Cəmiyyətin inkişaf istiqamətlərinin müəyyən edilməsi;*
3. *Cəmiyyətin illik hesabatlarının, mühasibat balanslarının, mənfəət və zərər hesablarının təsdiqi, mənfəətinin və zərərinin bölüşdürülməsi;*
4. *Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi*.

# Cəmiyyətin idarə edilməsi

- Yuxarıda qeyd olunanlar istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli isə  Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə havalə olnub.

- Nizamnaməyə əsasən, Cəmiyyətin ***kollegial orqanı*** **İdarə Heyəti**dir.

- İdarə Heyəti qanunvericiliklə və Cəmiyyətin Nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətləri daxilində Cəmiyyətin idarə edilməsi ilə bağlı bütün məsələləri həll edir.

# Cəmiyyətin idarə edilməsi: İdarə Heyəti

İdarə Heyətinin tərkibi 7 nəfərdən ibarətdir:

- Cəmiyyətin sədri,
- sədrin birinci müavinini,
- digər dörd müavini,
- habelə "Naxçıvan Dəmir Yolları" MMC-nin direktoru.

İdarə Heyətinin işinə Cəmiyyətin sədri rəhbərlik edir.

- ***Cəmiyyətin sədri, sədrinin birinci müavini və müavinləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilir və azad olunurlar***.

# Cəmiyyətin idarəetmə strukturu



# Cəmiyyətin idarə edilməsi: korporativ idarəetmə problemi

- ADY-nin idarəetmə modeli tam aydın və sistemli deyil. İdarəetmə modelində bəzi vacib elementlər (məsələn, korporativ idarəetmə) yoxdur.

- "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 sentyabr tarixli 2300 nömrəli Sərəncamının tələbinə uyğun olaraq (*sərəncamda 4 ay müddət verilməsinə baxmayaraq*) Nazirlər Kabinetinin *2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarı* ilə**"Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə Qaydaları və Standartları**" təsdiq edilib;

- Qərarda göstərilir ki, bu Qaydalar və Standartların tətbiqi ilə bağlı Nazirlər Kabinetinin *2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarı* ilə yaradılmış **İri dövlət şirkətlərinin gəlirlər və xərclər smetaları üzrə Komissiya** tərəfindən zəruri tədbirlər həyata keçirilir;

- Amma bu zəruri tədbirlərin nədən ibarət olması və hansı müddətlərdə həyata keçirilməsi ilə bağlı heç bir dəqiqlik yoxdur.

# Cəmiyyətin idarə edilməsi: korporativ idarəetmə problemi

- 2016-cı ilin sonundan etibarən Asiya İnkişaf Bankının (AİB) texniki dəstəyi ilə ölkənin dəmir yolu sistemində korporativ, institusional, maliyyə və insan resursları sahəsində islahatların həyata keçirilməsini nəzərdə tutan "***Dəmir Yolu Sektorunun İnkişafı Proqr***amı" işlənib hazırlanmış və həyata keçirilməkdədir.
- Proqramın icrası çərçivəsində beynəlxalq məsləhət şirkətləri cəlb edilməklə "ADY" QSC-nin hərtərəfli inkişafı üzrə qarşıya qoyulan strateji hədəflərin dairəsini, həmin hədəflərin reallaşdırılması tədbirlərini əks etdirən və 5 illik dövrü əhatə edən Biznes plan hazırlanmışdır (https://ady.az/az/content/index/77/42 );
- Biznes Planda 2018-2020-ci illərdə ADY üçün aydın idarəetmə modelinin və təşkilati strukturun inkişaf etdirilməsi nəzərdə tutulur;

Proqramın icrası çərçivəsində ADY QSC -də idarəetmənin təkmilləşdirilməsi və maliyyə müstəqilliyinin gücləndirilməsi məqsədi ilə cəmiyyətdə effektiv korporativ idarəetmə mexanizminin formalaşdırılması, o cümlədən idarəetmədə ümumi rəhbərliyi həyata keçirən ***Müşahidə Şurası institutunun yaradılması üzrə təkliflər*** hazırlanmış və bununla bağlı aidiyyəti dövlət qurumlarına müraciət olunduğu bildirilir.

# Cəmiyyətin idarə edilməsi: korporativ idarəetmə problemi

- Proqramın icrası çərçivəsində "Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərdə korporativ idarəetmə Qaydaları və Standartları"nın tələblərinə uyğun olaraq ADY QSC-də Korporativ İdarəetmə standartlarının tətbiq edilməsi ilə bağlı zəruri tədbirlərin görülməkdə olduğu bildirilir;
- 2019-cu il ərzində korporativ restrukturizasiya planının həyata keçirilməsi məqsədi ilə, Təfsilatlı korporativ restrukturizasiya planı ADY QSC -nin idarələrinə göndərilmişdir;
- ADY QSC sədrinin ***7 mart 2019-cu il tarixli 27S nömrəli əmri ilə*** restrukturizasiya prosesinə başlanıldığı bildirilir;
- Korporativ restrukturizasiyadan irəli gələn məsələlər ilə bağlı funksiyaların və işçilərin köçürülməsi prosesi və qarşıya qoyulmuş digər tapşırıqların icrası həyata keçiriləkdədir;
- Korporativ restrukturizasiya planına uyğun olaraq müvafiq struktur dəyişikləri həyata keçirilmiş, funksional və birbaşa tabeçilik mexanizmi qurulmuşdur.

https://ady.az/az/content/index/75/73

# ADY QSC-nin fəaliyyət göstəriciləri







| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Ümumi yük daşınmasında tranzit daşımaların payı, faizlə | 23,0 | 24,5 | 23,0 | 21,8 | 24,9 |

**Müqayisə üçün**: Gürcüstanda dəmir yolunda yük daşımalarının 70 faizə qədəri tranzit daşımaların payına düşür.

# ADY QSC-nin fəaliyyət göstəriciləri







https://ady.az/az/content/index/66/42

# ADY QSC-nin fəaliyyət göstəriciləri

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Bir günə orta hesabla yük qatarlarının sayı, ədəd | 7,1 | 6,1 | 5,3 | 5,0 | 5,6 |
| İşçi sayı, nəfər | **8093** | **7799** | **7490** | **6129** | **5709** |
| Əmək məhsuldarlığı, min ton-km | | 665,8 | 618,6 | 732,9 | 902,4 |
| 10000 ton-km brutto üçün yanacaq sərfi, ton | 0,12 | 0,07 | 0,09 | 0,06 | 0,06 |
| 10000 t0n-km üçün elektrik sərfi, KVt-saat | 116,0 | 121,0 | 116,0 | 113,0 | 112,0 |

https://ady.az/az/content/index/66/42

Daşınmış konteynerlərin sayı, ədəd




Dəmir yolu nəqliyyatında işçilərin orta illik sayı, nəfər




(mənbə: DSK)

## Dəmir yolu nəqliyyatında əsas kapitala investisiyalar, min manat




(mənbə: DSK)

# Şəffaflıq və hesabatlılıq

Cəmiyyətin Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş Nizamnaməsinin 5.4-cü maddəsində qeyd olunur ki, *şəffaflığın təmin edilməsi üçün* Cəmiyyət

- ***illik maliyyə hesabatını*** *hər il* ***maliyyə ili bitdikdən sonra 4 aydan gec olmayan müddətdə*** *auditor rəyi ilə birlikdə,*
- həmçinin Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) bağlanması barədə məlumatı

*mətbu orqanda dərc etdirməyə və Cəmiyyətin internet səhifəsində yerləşdirməyə borcludur*.

- Amma Cəmiyyət hələ də Nizamnamənin bu tələbini yerinə yetirmir;
- Cəmiyyətin saytında ADY QSC-nin maliyyə hesabatları əvəzinə yalnız cəmiyyətin Həkim-Sanitar Xidməti üzrə konsolidə edilmiş hesabatlar yerləşdirilir;
- ADY OSC-nin 2018-ci il üzrə konsolidə edilmiş maliyyə hesabatı «Azərbaycan Dəmiryolçuları» qəzetinnin 2019-cu il oktyabr sayında (izahatsız) dərc olunub;
- Cəmiyyətin 2015, 2016 və 2017-ci il üzrə maliyyə hesabatlarını Dünya bankının saytından əldə edə bildik.

# Cəmiyyətin maliyyə göstəriciləri: kapitalın dinamikası (mln. manat)

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| **Nizamnamə kapitalı** | 726,15 | 726,15 | 726,15 | 806,06 | 806,06 |
| **Dövlət investisiyaları** | 523,06 | 607,1 | 946,21 | 1174,51 | 1905,46 |
| **Yığılmış zərər/bölünməmiş mənfəət** | 651,1 | -42,27 | -539,57 | -1103,38 | -1475,81 |
| **Məcmu məzənnə fərqləri** | | -12,9 | -14,87 | -13,28 | -12,86 |
| **Digər ehtiyatlar** | | -16,03 | -16,03 | -16,03 | -16,03 |
| **Qrupun səhmdarlarına aid olan kapital** | 1900,3 | 1262,05 | 1101,89 | 847,88 | 1206,83 |
| **Qeyri-nəzarət payı** | | | 0,69 | 8,96 | 9,53 |
| **Cəmi kapital** | 1900,3 | 1262,05 | 1102,58 | 856,84 | 1216,36 |

# Cəmiyyətin maliyyə göstəriciləri: öhdəliklər(mln. manat)

| Uzunmüddətli öhdəliklər | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Borc alınmış vəsaitlər | 245,8 | 733,9 | 1351,48 | 2326,27 | 2482,53 |
| Təxirə salınmış vergi öhdəlikləri | 238,9 | 66,39 | | | |
| Maliyyə icarəsi üzrə öhdəliklər | 19,37 | 81,83 | 74,92 | 43,71 | 22,48 |
| Ticarət və digər ödəmələr | | 158,3 | 175,08 | | |
| Digər uzunmüddətli öhdəliklər | 27,17 | 27,79 | 22,82 | 20,12 | 18,33 |
| *Cəmi uzunmüddətli öhdəliklər* | ***531,2*** | ***1068,24*** | ***1624,3*** | ***2390,1*** | ***2523,33*** |
| Cari öhdəliklər | | | | | |
| Borc alınmış vəsaitlər | 58,7 | 224,95 | 522,39 | 222,5 | 241,66 |
| Maliyyə lizinqi üzrə öhdəliklər | 4,9 | 15,5 | 21,63 | 14,8 | 7,02 |
| Ticarət və digər kreditor borcları | 70,27 | 190,86 | 221,61 | 153,81 | 143,45 |
| Mənfəət vergisindən başqa ödəniləcək digər vergilər | **28,5** | **15,37** | **10,87** | **8,19** | **1,6** |
| Mənfəət vergisi öhdəliyi | **3,58** | **1,66** | **0,17** | **0,03** | **0,3** |
| Alınmış avanslar | 3,35 | 139,68 | 138,32 | 101,85 | 107,61 |
| Əmək haqqı öhdəlikləri | 6,16 | 6,23 | 7,29 | 8,79 | 9,61 |
| Digər cari öhdəliklər | 0,21 | 0,54 | 0,41 | 0,66 | 2,92 |
| *Cəmi cari öhdəliklər* | ***175,73*** | ***594,78*** | ***922,7*** | ***510,63*** | ***514,16*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **706,97** | **1663,02** | **2547,0** | **2900,73** | **3037,49** |

# Cəmiyyətin maliyyə balansı (mln. manat)

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Cəmi uzunmüddətli aktivlər | 2376,3 | 2687,3 | 3286,14 | 3399,59 | 3921,87 |
| Cəmi qısamüddətli aktivlər | 230,94 | 287,81 | 363,44 | 357,98 | 331,99 |
| CƏMİ AKTİVLƏR | 2607,3 | 2925,07 | 3649,58 | 3757,57 | 4253,86 |







| | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Cəmi uzunmüddətli öhdəliklər | 531,2 | 1068,24 | 1624,3 | 2390,1 | 2523,33 |
| Cəmi cari öhdəliklər | 175,73 | 594,78 | 922,7 | 510,63 | 514,16 |
| CƏMİ ÖHDƏLİKLƏR | 706,97 | 1663,02 | 2547,0 | 2900,73 | 3037,49 |
| Cəmi kapital | 1900,3 | 1262,05 | 1102,58 | 856,84 | 1216,36 |
| CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL | 2607,3 | 2925,07 | 3649,58 | 3757,57 | 4253,86 |

# Cəmiyyətin gəlirləri (mln. manat)

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Yük daşınması üzrə gəlirlər | 202,52 | 203,41 | 261,57 | 253,78 | 258,72 |
| Sərnişin daşınması üzrə gəlirlər | 14,45 | 12,13 | 13,16 | 14,79 | 14,66 |
| Tikinti üzrə gəlirlər | 23,05 | 31,93 | 61,91 | 73,18 | 66,11 |
| Digər gəlirlər | 31,88 | 29,16 | 26,38 | 42,91 | 38,71 |
| **Cəmi gəlirlər** | **271,9** | **276,63** | **363,03** | **384,65** | **378,2** |






# Cəmiyyətin xərcləri və zərəri (mln. manat)

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| Köhnəlmə və amortizasiya | -107,1 | -132,63 | -157,6 | -175,66 | -191,05 |
| Əmək ödənişləri və üstəlik xərclər | -79,75 | -67,59 | -68,91 | -88,48 | -97,78 |
| Materiallar, təmir və texniki xidmətlər | -31,26 | -29,21 | -14,12 | -10,3 | -15,26 |
| Elektrik enerjisi xərcləri | -18,55 | -17,57 | -13,22 | -18,0 | -20,21 |
| Tikinti xərcləri | -16,31 | -37,85 | -63,09 | -71,59 | -65,17 |
| Mənfəət vergisindən başqa digər vergilər | -19,94 | -19,24 | -21,99 | -27,73 | -35,12 |
| Nəqliyyat xərcləri | | | | -3,17 | -22,41 |
| Yanacaq xərcləri | -13,21 | -7,6 | -7,02 | -7,0 | -8,74 |
| Yataq dəstlərinin yuyulması xərcləri | -1,62 | -1,11 | -0,79 | -0,58 | -0,67 |
| İcarə xərcləri | | -8,23 | -2,81 | -1,71 | -2,6 |
| Bank komissiyası | | -5,16 | -5,81 | -2,25 | -1,88 |
| Digər əməliyyat xərcləri | -17,51 | -11,95 | -15,08 | -21,13 | -28,07 |
| **Cəmi əməliyyat xərcləri** | **-305,24** | **-338,13** | **-370,43** | **-427,6** | **-488,96** |

| | | | | | |
|---|---|---|---|---|---|
| Digər gəlirlər/xərclər | -25,81 | -802,82 | -558,24 | -510,28 | -259,28 |
| **Mənfəət vergisindən əvvəl zərər** | **-58,97** | **-864,5** | **-565,64** | **-553,23** | **-370,04** |
| Mənfəət vergisi üzrə xərc | 10,1 | 171,13 | 68,95 | -2,31 | -1,59 |
| **İl üzrə zərər** | **-48,87** | **693,37** | **-496,69** | **-555,54** | **-371,63** |

# ADY QSC-nin dövlət büdcəsi ilə münasibətləri







**Qeyd:** 2014, 2017 və 2018-ci illərdə cəmiyyətin nizamnamə kapitalının artırılması üçün dövlət büdcəsindən, müvafiq olaraq, **127.2, 79.9 və 100.0 mln. manat** ayrılıb. Həmin məbləğlər buraya daxil edilib.

**Sual: İnvestisiya layihələrinin əsaslandırılmasl qaydaları varmı?**

# ADY QSC-nin xarici borclanmaları

- Azərbaycan Respublikası Hökuməti və Asiya İnkişaf Bankı arasında **19 dekabr 2017-ci il tarixində 250 mln. ABŞ dolları** məbləğində *Dəmir yolu Sektorunun İnkişafı Proqr*amı üçün kredit müqaviləsi (Siyasət Krediti) və 150 milyon ABŞ dolları məbləğində *Dəmir yolu Sektorunun İnkişafı Layihəsi* üçün kredit müqaviləsi (Layihə Krediti) bağlanmışdır. Fransa İnkişaf Agentliyi hər iki layihənin həyata keçirilməsinə dəstək verir. ;
- 2018-ci il ərzində "Azərbaycan Dəmir Yol" QSC "Dəmir yolu sektorunun inkişafı proqramı" çərçivəsində **150,0 mln.-luq** layihə sazişi imzalayıb;
- 2019-cu ildə imzalanmış kredit muqavilələri aşağıdakı layihələr uzrə olmuşdur:

\- 6 il guzəşt muddəti daxil olmaqla 19 il muddətinə 6 aylıq Euribor ustəgəl 1,1 faiz dərəcəsi ilə Fransa İnkişaf Agentliyindən "Dəmir yolu sektorunun inkişafı" layihəsi uzrə 67,3 milyon avro (128,0 milyon manat);

\- 6 il güzəşt müddəti daxil olmaqla 19 il müddətinə 6 aylıq Euribor üstəgəl 1,1 faiz dərəcəsi ilə Fransa İnkişaf Agentliyindən "Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulması" layihəsi üzrə 93,2 milyon avro (178,0 milyon manat).

# Layihə və xərclər haqda məlumatın açıqlığı

- AİB-in saytlarında layihə çərçivəsində aşağıdakı sənədlər nəşr olunub:

1. Layihəyə texniki dəstək haqda hazırlıq hesabatı;
2. «Initial poverty and Social Analysis» hesabatı;
3. Koçürmə planının qaralaması;
4. Ətraf mühit və kriteriyaların qiymətləndirilməsiylə bağlı hesabat;
5. AİB prezidentinin hesabat və tövsiyyələri;
6. AİB və Azərbaycan hökuməti arasında kredit müqaviləsi;
7. AİB ilə ADY arasında layihə müqavilələri;
8. Layihənin idarəsi üzrə təlimat;
9. Köçürmə planı;
10. Ətraf mühitin monitorinqi planı;
11. Layihənin idarəsi üzrə yenilənmiş təlimat;
12. 2018-ci ilin nəticələri üzrə yoxlanmış maliyyə göstəriciləri;
13. Köçürmələr və torpaqların birləşdirilməsinin başa çatması haqda hesabat;
14. Satınalmalar planı.

ADY-nin rəsmi saytında bu sənədlərdən cəmi ikisi nəşr edilib (4-cü və 9-cu bənd).

ASIAN DEVELOPMENT BANK

## Azərbaycan: Dəmiryolu Sektorunun İnkişaf Proqramı

| | |
|---|---|
| Layihənin adı | Dəmiryolu Sektorunun İnkişaf Proqramı |
| Layihənin nömrəsi | 48386-004 |
| Ölkə | Azərbaycan |
| Layihənin Statusu | Təklif olunub |
| Layihənin növü / Yardımın Modallığı | Kredit |
| Maliyyələşdirmə Mənbəyi / Məbləğ | **Kredit: Dəmiryolu Sektorunun İnkişafı Proqramı**<br>Adi kapital resursları — 200.00 milyon ABŞ dolları<br>Adi  kapital resursları — 200.00 milyon ABŞ dolları |
| Gündəlikdə duran strateji məsələlər | Əhatəli iqtisadi artım<br>Regional inteqrasiya |
| Dəyişikliyin səbəbləri | İdarəetmə və bacarıqların inkişaf etdirilməsi<br>Bilik variantları |
| Sektor / Subsektor | **Nəqliyyat** – Dəmiryolu nəqliyyatı (qeyri-şəhər) |

https://ewsdata.rightsindevelopment.org/files/documents/04/ADB-48386-004_c19qjAU.pdf

## Dəmiryolu Sektorunun İnkişafı Proqramı: Layihənin təşkilati strukturu




https://ady.az/az/content/index/78/73

## 17. BORROWINGS

The borrowings as at December 31, 2017 comprise:

| Lender name | Effective interest rate | Initial disbursed amount in Original CCY in thousands | CCY type | Outstanding amount in AZN in thousands | Origination date per contract/ amendment | Final maturity date |
|---|---|---|---|---|---|---|
| **BNP Paribas (Suisse) S.A.** | | | | | | |
| Loan 1 | Libor+3.75% | 180,000 | USD | 92,655 | Sep-28-2015 | Feb-28-2020 |
| **VTB Bank Austria** | | | | | | |
| Loan 1 | 5.75% | 195,000 | USD | 70,888 | Feb-13-2014 | Feb-25-2019 |
| **Credit Suisse AG** | | | | | | |
| Loan 1 | Euribor+1.15% | 73,735 | EUR | 127,589 | Jun-15-2015 | Jan-31-2030 |
| Loan 2 | Euribor+3% | 11,194 | EUR | 10,771 | Jun-15-2015 | Jun-30-2020 |
| **HSBC Bank plc** | | | | | | |
| Loan 1 | Euribor+1% | 243,445 | EUR | 467,931 | Apr-14-2015 | Jun-30-2025 |
| Loan 1 | Euribor+1% | 72,982 | EUR | 116,304 | Apr-14-2015 | Jan-31-2027 |
| **Ceska Sporitelna S.A** | | | | | | |
| Loan 1 | Euribor+1.45% | 64,039 | EUR | 117,757 | Feb-25-2016 | Feb-2-2022 |
| **Ceskoslovenska Obchodni S.A** | | | | | | |
| Loan 1 | Euribor+1.45% | 82,000 | EUR | 166,631 | Feb-26-2016 | Aug-26-2022 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Societe Generale** | | | | | | |
| Loan 1 | Euribor+1% | 99,698 | EUR | 204,505 | Mar-30-2016 | Oct-15-2031 |
| **"Kapital Bank" OJSC** | | | | | | |
| Loan 1 | 4.6% | 136,579 | USD | 233,176 | Jul-4-2017 | Jul-4-2019 |
| **"International Bank of Azerbaijan" OJSC** | | | | | | |
| Loan 1 | 4% | 49,500 | USD | 82,538 | Jul-18-2017 | Jul-18-2020 |
| **"Demir Bank" OJSC (currently under liquidation)** | | | | | | |
| Loan 1 | 14% | 7,500 | USD | 2,550 | Feb-24-2015 | Dec-31-2017 |
| **"Bayburt Group Construction" Ltd.** | | | | | | |
| Loan 1 | 0% | 15,455 | EUR | 3,259 | May-17-2016 | May-17-2026 |
| **"Agrar Credit" NBCO** | | | | | | |
| Loan 1 | 4.5% | 9,495 | AZN | 7,859 | Jan-26-2017 | Jan-26-2019 |
| **The Government of the Republic of Azerbaijan** | | | | | | |
| Loan 1 | Libor+Variable Spr | 21,554 | USD | 36,643 | Sep-18-2009 | Dec-15-2030 |
| Loan 2 | 0.2% | 39,739 | EUR | 80,698 | Nov-1-2015 | Jul-31-2021 |
| Loan 3 | 0% | 10,000 | EUR | 20,307 | Apr-7-2016 | Apr-7-2020 |
| Loan 4 | 1% | 213,000 | USD | 362,280 | Dec-15-2017 | Jun-15-2032 |
| Loan 5 | 1% | 344,000 | AZN | 344,424 | Dec-15-2017 | Jun-15-2031 |
| **TOTAL** | | | | **2,548,765** | | |

# ADY QSC riskli ödəyicidir

Maliyyə nazirliyinin məlumatına əsasən ADY QSC-nin xarici borcu:

- 2016-cı ilin sonuna 545.3 mln.,
- 2017-ci ilin sonuna 649.9 mln.,
- 2018-ci ilin sonuna 838.0 mln. ABŞ dolları

səviyyəsinə çatıb.

- Hesablama Palatasının “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsinə və dövlət büdcəsinin icrasına dair illik hesabata rəyində qeyd olunub ki, Dövlət zəmanəti ilə alınan borclar üzrə Təminat Fondundan ödənilmiş vəsaitin qaytarılması nəzərdə tutulan (əsas borc) məbləği ümumilikdə 2018-ci il üzrə 295,5 mln. manat, 2019-cu il üzrə 388,6 mln. manat təşkil edir.
- Sənəddə qeyd edilib ki, bu borcların əsas hissəsi “Azərbaycan Hava Yolları” QSC (AZAL), Dövlət Neft Şirkəti (SOCAR), “Azərkosmos” ASC, “Azərenerji” ASC, “Azəralüminium“ ASC və “Azərbaycan Dəmir Yolları” QSC üzrədir.

# Satınalmalar

- ADY QSC-nin satınalmalarında şəffaflıq təmin olunmur.
- Cəmiyyətin saytında «satınalmalar» bölməsi olsa da, orada yalnız satınalmalar barədə elanlar və bildirişlər verilir. https://ady.az/az/content/index/68
- Satınalmaların nəticələri haqqında məlumatlar heç yerdə (hətta müvafiq hökumət say tında da) olmur.
- Sual: şirkətin satınalma standartı varmı?

# Tariflərin müəyyən edilməsi

- dəmir yolu daşımalarında, o cümlədən beynəlxalq yükdaşımalarda göstərilən xidmətlərin tarifləri, yığımlar, habelə tariflər üzrə güzəştlər Cəmiyyət tərəfindən müəyyən edilir.

- Cəmiyyətin gəlirləri faktiki daxilolmalar əsasında tariflərə tətbiq olunan güzəştlər nəzərə alınmaqla hesablanır.

- Tariflər barədə məlumatlar Cəmiyyətin saytında yerləşdirilib: [https://ady.az/az/content/index/45](https://ady.az/az/content/index/45)



# İnkişaf perspektivləri

- “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 18 sentyabr 2015-ci il tarixli Fərmanı
- Azərbaycan Respublikası Nazirlər Kabineti 2016-cı il 21 oktyabr tarixli 550 s saylı sərəncamına əsasən ADY QSC orta müddətli dövrdə dövlət mülkiyyətində saxlanılacaq dövlət müəssisələrinin siyahısındadır
- Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəliFərmanı ilə təsdiq edilib)
- Dəmir Yolu Sektorunun İnkişafı Proqramı
- ADY QSC-nin fəaliyyətinin səmərəliliyinin artırılması və idarə edilməsinin təkmilləşdirilməsini nəzərdə tutan 2017-2022-ci illər üzrə Biznes-plan və s.

# Logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi

**STRATEJİ HƏDƏF 3. LOGİSTİKA VƏ TİCARƏT SAHƏSİNDƏ MƏQSƏDLƏRİN GERÇƏKLƏŞDİRİLMƏSİ ÜÇÜN MÜHÜM HƏRƏKƏTVERİCİ MEXANİZMLƏRİN TƏTBİQİ**

**Prioritet 3.1. Logistika sahəsində özəl sektorun iştirak səviyyəsinin yüksəldilməsi**

- **Dəmir yolları sahəsində dövlət-özəl tərəfdaşlığı**. Dövlət-özəl tərəşdaşlığı modelinin dəmir yollarının müəyyən sahələrində tətbiqinin nəzərdən keçirilməsi, o cümlədən dəmir yolları sahəsinin ən çox investisiya tələb edən sahələrindən olan **yeni dəmiryol vaqonları və lokomotiv parkının genişləndirilməsi sahəsində** dövlət-özəl tərəşdaşlığı modelinin tətbiqi və özəl investisiyanın bu sahəyə cəlb edilməsi ilə dövlət büdcəsinin xərc yükünü azaltmaq mümkündür.
- Əsas və qeyri-əsas aktivlərin restrukturizasiyası
- Coğrafi restrukturizasiya
- Biznes xəttinin restrukturizasiyası
- Funksional restrukturizasiya

# Xarici təcrübə

Araşdırıb: Fərid Mehralızadə

- Dəmir yolu logistikasında özəl sektorun inkişafı (Rusiya, Polşa, Rumıniya, Türkiyə və Yaponiya təcrübələri)

- Dəmir yolu sahəsində mövcud dövlət şirkətilərində korporativ idarəetmə necə qurulub (Rusiya, Gürcüstan, Türkiyə, Çin, Hindistan və Qazaxstan nümunələri)

# Tövsiyələr

- ADY QSC-nin strukturunun optimallaşdırılması (outsorsinq)
- ADY QSC-də real korporativ idarəetmənin tətbiqi
- ADY QSC-nin fəaliyyətinin şəffaflığı və hesabatlılığının təmin edilməsi
- Dəmir yolu daşınmalarında rəqabət elementlərinin və özəl sektorun tətbiqi

✓ təbii inhisar (həlledici resurs) sayılan dəmir yolu xəttləri və dəmir yolu vağzalları infrastrukturunun yaradılması və idarə edilməsi istisna olmaqla bütün funksional istiqamətlərdə, xüsusilə daşıma xidmətləri sahəsində özəl xidmət şirkətlərinin yaranmasına şərait yaradılması

✓

**Diqqətinizə görə təşəkkür edirəm!**